*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 7 Sayı: 6 / 185-188 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2025 / Volume: 7 Issue: 6 / 185-188 e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/48/185-188

**Şəhla Abadova**
Azərbaycan Universiteti
https://orcid.org/0009-0000-8865-2529
abadovasehla@gmail.com

# Münaqişəli gənc ailələr: sosial işin tədqiqat obyekti kimi

## Xülasə

Bu tədqiqat işində münaqişəli gənc ailələr sosial işin tədqiqat obyekti kimi araşdırılır. Müasir cəmiyyətlərdə ailədaxili münasibətlərin gərginləşməsi, ailə üzvləri arasında qarşılıqlı anlaşılmazlıqların artması və boşanma hallarının çoxalması sosial iş sahəsində bu mövzunun aktuallığını artırır. Xüsusilə gənc ailələrdə qarşıya çıxan psixoloji, iqtisadi və sosial çətinliklər onların münasibətlərinə mənfi təsir göstərir. Araşdırmada münaqişələrin yaranma səbəbləri, nəticələri və sosial işin bu ailələrlə iş üsulları təhlil olunur. Həmçinin, sosial işçilərin münaqişələrin həllində rolu, preventiv və müdaxilə tədbirləri, müvafiq dəstək mexanizmləri nəzərdən keçirilir. Bu yanaşma vasitəsilə ailə institutunun gücləndirilməsi və sosial rifahın artırılması məqsəd qoyulmuşdur.

***Açar sözlər:*** *münaqişəli ailələr, gənc ailələr, sosial iş, ailədaxili münasibətlər, sosial müdaxilə, psixososial dəstək, ailə rifahı*

**Shahla Abadova**
Azerbaijan University
https://orcid.org/0009-0000-8865-2529
abadovasehla@gmail.com

# Conflicted Young Families: As an Object of Social Work Research

## Abstract

This research explores conflicted young families as an object of social work research. In modern societies, the intensification of intra-family tensions, the increase in misunderstandings between family members and the rising divorce rates have heightened the relevance of this issue in the field of social work. Young families, in particular, face psychological, economic, and social challenges that negatively affect their relationships. The study analyzes the causes and consequences of conflicts, as well as the methods used by social workers to address issues within these families. Additionally, the role of social workers in conflict resolution, preventive and intervention strategies and appropriate support mechanisms are examined. This approach aims to strengthen the family institution and improve social welfare

***Keywords:*** *conflicted families, young families, social work, intra-family relationships, social intervention, psychosocial support, family welfare*

## Giriş

Ailə cəmiyyətin əsas sosial institutlarından biri kimi insanların sosiallaşmasında, mənəvi dəyərlərin ötürülməsində və fərdin psixoloji rifahının formalaşmasında mühüm rol oynayır. Xüsusilə gənc ailələr, yeni həyat tərzinə uyğunlaşma mərhələsində olduqları üçün müxtəlif çətinliklərlə qarşılaşırlar. Bu mərhələdə yaşanan problemlər bəzən qarşılıqlı anlaşılmazlıqlara, emosional gərginliyə və nəticə etibarilə münaqişələrə səbəb olur. Ailədaxili münaqişələr isə yalnız ailə üzvlərinin deyil, cəmiyyətin ümumi sosial rifahına da təsir göstərən amillərdən biridir (Əlizadə, 2018).

Müasir dövrdə urbanizasiyanın, iqtisadi qeyri-sabitliyin, sosial və mədəni dəyişikliklərin artması ailə institutuna əlavə təzyiqlər yaratmışdır. Ən çox təsirlənən qruplardan biri isə gənc ailələrdir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Həyat təcrübəsinin azlığı, emosional yetkinliyin tam formalaşmaması, valideynlik rolu ilə bağlı qeyri-müəyyənliklər, sosial dəstək mexanizmlərinin zəifliyi kimi faktorlar gənc ailələrdə münaqişələrin tez-tez baş verməsinə səbəb olur. Bu səbəbdən, gənc ailələrdə münaqişələrin araşdırılması və sosial işin müdaxilə imkanlarının öyrənilməsi aktual və zəruri məsələlərdəndir (Məmmədova, 2022).

Sosial iş elmi, insan rifahını təmin etmək, sosial problemlərin qarşısını almaq və ehtiyac içində olan fərdlərə, ailələrə və qruplara dəstək göstərmək məqsədilə formalaşmış bir sahədir. Sosial işçilər ailədaxili münaqişələrin diaqnostikası, həlli, resursların səfərbər olunması və ailə münasibətlərinin sağlamlaşdırılması istiqamətində əhəmiyyətli vəzifələr daşıyırlar. Bu baxımdan münaqişəli gənc ailələr sosial işin həm nəzəri, həm də praktik sahəsində araşdırılması vacib obyektlərdən biridir (Giddens, 2013).

**Tədqiqat**

Bu tədqiqatda məqsəd münaqişəli gənc ailələrin əsas xüsusiyyətlərini, qarşılaşdıqları sosial və psixoloji problemləri təhlil etmək, bu ailələrlə sosial işin əsas prinsiplərini və müdaxilə modellərini müəyyənləşdirməkdir. Tədqiqat çərçivəsində həmçinin, bu sahədə tətbiq olunan yerli və beynəlxalq təcrübələrə də nəzər salınacaq, mövcud problemlərin həllinə yönəlmiş sosial iş strategiyaları təklif ediləcəkdir (Nasonov, 2019).

Ailə cəmiyyətin əsas sosial struktur vahidi kimi fərdin sosiallaşması, şəxsiyyətin formalaşması və mənəvi dəyərlərin ötürülməsi baxımından mühüm əhəmiyyətə malikdir. Gənc ailələr həyatlarının ilk illərində emosional, psixoloji və iqtisadi baxımdan bir çox problemlərlə qarşılaşırlar. Bu çətinliklər ailədaxili münasibətlərə mənfi təsir göstərərək münaqişələrin yaranmasına səbəb olur. Xüsusilə yeni evlənmiş cütlüklər arasında baş verən anlaşılmazlıqlar, maddi sıxıntılar və ünsiyyət problemləri ailədaxili gərginliyin əsas səbəblərindəndir. Müasir dövrdə urbanizasiya, iqtisadi qeyri-sabitlik, işsizlik, mədəni dəyişikliklər və sosial dəstək mexanizmlərinin zəifliyi ailə institutuna əlavə təzyiqlər göstərir. Ən çox təsirlənən qruplardan biri gənc ailələrdir (Klimantova, 2020). Həyat təcrübəsinin azlığı, emosional yetkinliyin tam formalaşmaması, valideynlik rolu ilə bağlı qeyri-müəyyənliklər bu ailələrin münaqişə potensialını artırır. Gənc ailələrdə münaqişələr əsasən psixoloji, iqtisadi və sosial səbəblərdən yaranır (United Nations, 2015). Maddi və mənzil problemləri, ər-arvad arasında ünsiyyət çatışmazlığı, valideyn və qohumların münasibətə müdaxiləsi, həyat dəyərlərinin və gözləntilərin uyğun gəlməməsi, qeyri-sabit məşğulluq və valideynlik məsələlərində fikir ayrılıqları bu problemlərin başlıca qaynaqlarıdır. Nəticədə ailələrdə emosional gərginlik artır, boşanma halları çoxalır, uşaqlar psixoloji travmalara məruz qalır və ailənin sosial funksiyaları pozulur. Belə vəziyyətlər yalnız fərdi səviyyədə deyil, ümumi sosial rifah üçün də təhlükə yaradır (Həsənov, 2020).

Sosial iş elmi insan rifahını təmin etməyə, sosial problemlərin qarşısını almağa və ehtiyac içində olan fərdlərə, ailələrə və qruplara dəstək göstərməyə yönəlmiş peşə sahəsidir. Sosial işçilər ailələrlə işləyərkən onların ehtiyaclarını və problemlərini müəyyən edir, fərdi və qrup şəklində psixososial dəstək göstərir, konfliktlərin səbəblərini aşkara çıxararaq onların aradan qaldırılması üçün müxtəlif metodlardan istifadə edirlər. Bu sahədə istifadə olunan müdaxilə üsulları arasında ailə məsləhət xidmətləri, psixoloji konsultasiyalar, ailə büdcəsinin planlaşdırılması üzrə təlimlər, gənc cütlüklər üçün ailə həyatına hazırlıq proqramları və sosial yardım mexanizmləri mövcuddur. Münaqişəli ailələrlə iş zamanı sosial işçilər həm preventiv, həm də müalicəvi yanaşmaları tətbiq edirlər. Bu yanaşmaların məqsədi ailədaxili münasibətləri sağlamlaşdırmaq, ailə üzvləri arasında qarşılıqlı anlaşmanı bərpa etmək və uşaqların sağlam psixoloji inkişafını təmin etməkdir (Kazımova, 2019).

Dünya təcrübəsində bir sıra ölkələrdə bu sahədə uğurlu modellər mövcuddur. Skandinaviya ölkələrində ailə məsləhət xidmətləri dövlət tərəfindən dəstəklənir və geniş yayılmışdır. Almaniyada isə gənc ailələrə psixososial dəstək və valideynlik təlimləri geniş şəkildə tətbiq olunur. Azərbaycanda bu sahədə müəyyən addımlar atılsa da, ailələrlə sosial iş praktikasının institusional əsasları hələ tam formalaşmayıb. Bu baxımdan, münaqişəli gənc ailələrlə iş üzrə xidmətlərin genişləndirilməsi, sosial işçilərin peşəkar hazırlığı və ictimai dəstək sistemlərinin gücləndirilməsi olduqca vacibdir. Bu tədqiqat nəticəsində aydın olmuşdur ki, ailədaxili münaqişələr çoxfaktorlu xarakter daşıyır və onların qarşısının alınması üçün sosial işin sistemli, məqsədyönlü və davamlı şəkildə təşkili zəruridir (UNICEF, 2020). Gənc ailələr üçün dövlət dəstəyi ilə psixososial xidmət mərkəzlərinin yaradılması, ali təhsil müəssisələrində ailə psixologiyası və sosial iş üzrə proqramların genişləndirilməsi, qeyri-

hökumət təşkilatlarının və ictimai qurumların bu sahədə fəallığının artırılması, ailədaxili zorakılıq və münaqişə halları ilə bağlı maarifləndirmə işlərinin aparılması və sosial işçilərin peşəkar hazırlığının yüksəldilməsi əsas tövsiyələr sırasındadır. Bu tədbirlər vasitəsilə ailə institutunun gücləndirilməsi və cəmiyyətin ümumi sosial rifahının artırılması mümkündür (Johnson, 2008).

Müasir cəmiyyətlərdə ailə münasibətləri getdikcə mürəkkəbləşir. Xüsusilə gənc ailələr həyatın ilk mərhələsində bir sıra sosial, psixoloji və iqtisadi sınaqlarla qarşılaşırlar. Bu mərhələdə tərəflər yalnız bir-birini daha yaxından tanımağa çalışmır, həm də ailə həyatının gündəlik qayğıları və rolları ilə üzləşirlər. Gənc ailələrin hələ tam formalaşmamış ailədaxili funksiyaları və qarşılıqlı gözləntilərin uyğunlaşmaması nəticəsində münaqişələr meydana çıxır. Bu münaqişələrin bəziləri sırf kommunikasiya çatışmazlığı, digərləri isə daha dərin sosial və psixoloji səbəblərlə bağlıdır (Panova, Mironova, 2017).

Ailədaxili münaqişələr adətən emosional gərginlik, qarşılıqlı ittiham, anlaşılmazlıq və qarşılıqlı tənqid şəklində özünü göstərir. Gənc ailələrdə bu cür gərginliklərin ən çox rast gəlinən səbəbləri arasında maliyyə problemləri, işsizlik, mənzil çətinlikləri, valideynlərin müdaxiləsi, şəxsi sərhədlərə hörmət olunmaması və sosial təzyiqlər dayanır. Qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində ailəyə dair sosial gözləntilər yüksəkdir. Ailələrin "nümunəvi" və "sabirli" olması, qadının və kişinin sosial rollarının ənənəvi çərçivədə yerinə yetirilməsi yönündə ictimai təzyiqlər, gənc ailələrə əlavə psixoloji yük gətirir. Bu kontekstdə qarşılıqlı anlaşmanın pozulması, ailə üzvlərinin özlərini ifadə edə bilməməsi və fərdi problemlərin açıq müzakirə olunmaması da münaqişələrin dərinləşməsinə gətirib çıxarır (Salehlı, Cəfərova, 2021).

Gənc ailələr üçün bu tipli vəziyyətlərin davamlı hal alması isə daha ciddi nəticələrə səbəb ola bilər. Uşaqların psixoloji inkişafı mənfi təsirlənə, ailə daxilində zorakılıq və ya ayrılıq halları baş verə bilər. Bütün bunlar həm ailə, həm də cəmiyyət üçün sosial fəsadlarla nəticələnə bilər. Bu mənada sosial işin rolu olduqca önəmlidir (Zastrow, 2017). Sosial iş bu cür ailələrlə işləyərək onların yaşadıqları problemləri düzgün analiz etmək, münasibətləri bərpa etmək və tərəflər arasında sağlam ünsiyyət qurulmasını təmin etməklə münaqişələrin qarşısını almağı və ya onları minimuma endirməyi qarşıya məqsəd qoyur (WHO (World Health Organization, 2016).

## Nəticə

Araşdırma nəticəsində məlum oldu ki, münaqişəli gənc ailələr sosial rifah və cəmiyyətin sabitliyi baxımından xüsusi diqqət və dəstəyə ehtiyacı olan bir qrupdur. Gənc ailələr həyatlarının ilk mərhələsində sosial, psixoloji və iqtisadi cəhətdən sabitliyə nail olmaqda çətinlik çəkirlər. Bu çətinliklər ailədaxili münasibətlərin gərginləşməsinə, ünsiyyətin pozulmasına, qarşılıqlı anlaşılmazlıqlara və nəticə etibarilə münaqişələrin yaranmasına səbəb olur. Əldə edilən məlumatlar göstərir ki, bu münaqişələrin yaranmasının əsas səbəbləri arasında ailə üzvləri arasında rola dair gözləntilərin uyğun gəlməməsi, maliyyə problemləri, valideyn müdaxiləsi, emosional yetkinliyin tam formalaşmaması və cəmiyyətin ailəyə yönəlik stereotipləri durur.

Münaqişəli gənc ailələrin mövcud problemləri yalnız şəxsi və ailədaxili deyil, eyni zamanda ictimai səviyyədə sosial fəsadlara səbəb ola bilər. Belə ki, ailələrin dağılması, uşaqların sağlam inkişafdan məhrum qalması, ailədaxili zorakılığın artması və sosial funksiyaların zəifləməsi kimi nəticələr ümumi cəmiyyət rifahına mənfi təsir göstərir. Bu baxımdan, sosial işin bu tip ailələrlə işləməsi olduqca əhəmiyyətlidir. Sosial işçilər problemin dərinliyinə nüfuz etməklə ailələrin ehtiyaclarını müəyyən edir, sosial dəstək və yönləndirmə xidmətləri göstərir, həm də maarifləndirici və preventiv tədbirlərlə münaqişələrin qarşısını almağa çalışırlar.

## Ədəbiyyat

1. Əlizadə, A. (2018). Sosial işin əsasları. Bakı: Adiloğlu Nəşriyyatı.
2. Giddens, A. (2013). Sociology (7th ed.). Cambridge: Polity Press.
3. Həsənov, R. (2020). Ailə psixologiyası və ailə münasibətləri. Bakı: Elm və Təhsil.
4. Johnson, M. P. (2008). A Typology of Domestic Violence: Intimate Terrorism, Violent Resistance, and Situational Couple Violence. Boston: Northeastern University Press.

5. Kazımova, T. (2019). Ailədə münasibətlər və sosial problemlər. Bakı: Elm.
6. Klimantova, G. P. (2020). Psikhosotsial'naya podderzhka molodykh semey v usloviyakh sotsial'nogo napryazheniya. Zhurnal Sotsial'noy Raboty, 5(1), 28–35.
7. Məmmədova, Ş. (2022). Gənc ailələrdə sosial-psixoloji uyğunlaşma problemləri. Azərbaycan Sosial Elmlər Jurnalı, 6(2), 45–52.
8. Nasonov, S. A. (2019). Semeynyye konflikty i ikh razresheniye: sotsiologicheskiy i psikhologicheskiy aspekty. Moskva: Yurayt.
9. Panova, A. A., & Mironova, I. S. (2017). Sotsial'naya rabota s sem'yey: teoriya i praktika. Sankt-Peterburg: Rech'.
10. Salehlı, R., & Cəfərova, N. (2021). Sosial işdə ailə ilə işin xüsusiyyətləri və problemləri. Sosial Tədqiqatlar Elmi Jurnalı, 3(1), 30–37.
11. UNICEF. (2020). Supporting Families During Crisis: Guidance for Social Workers and Service Providers. New York: UNICEF Publications.
12. United Nations. (2015). Transforming Our World: The 2030 Agenda for Sustainable Development. New York: UN Department of Economic and Social Affairs.
13. WHO (World Health Organization). (2016). INSPIRE: Seven Strategies for Ending Violence Against Children. Geneva: WHO.
14. Zastrow, C. (2017). Introduction to Social Work and Social Welfare: Empowering People (12th ed.). Boston: Cengage Learning.

Daxil oldu: 24.03.2025
Qəbul edildi: 22.05.2025